**SOSİOLOGİYA**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA İNSAN AMİLİ PROBLEMİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Fəridə Mikayılova***
*AMİ-nin Ağcabədi filialının baş müəllimi*

Müasir dünyada gedən qloballaşma prosesində insan amilinin öyrənilməsi həm təbiət, həm də humanitar elmlər üçün mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətimizdə baş verən iqtisadi inkişaf, istehsalatda yeni texnologiyaların tətbiqi, təhsil, səhiyyə sosial təminat sisteminin durmadan təkmilləşdirilməsi zərurəti insana aid problemlərin köklü şəkildə işlənib hazırlanmasını tələb edir.

Dünyəvi dövlət quruculuğunu həyata keçirən Azərbaycanın beynəlxalq aləmdə nüfuzu getdikcə artır və geostrateji əhəmiyyəti yüksəlir. Dünyada gedən qloballaşma prosesində respublikamız yaxından iştirak edir.

BMT-nin təşəbbüsü ilə 2000-ci ilin sentyabr ayında Nyu-York şəhərində keçirilən «Minilliyin Forumu»nda iştirak edən mərhum prezidentimiz Heydər Əliyev insan amilində qloballaşmanın rolundan bəhs edərək demişdir : «Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır.» Bu mürəkkəb və heç də bir mənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin davamlı inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəlməsinə kömək etməlidir.

Sosialoji tədqiqatlar göstərir ki, Azərbaycanda insan amilinin inkişaf perspektivləri yüksəkdir. Respublikamızın zəngin təbii resurslara və intelaktual potensiala malik olması ölkədə davamlı insan inkişafına nail olmağa zəmanət verir. Həmçinin respublikamız yüksək elmi potensiala və bir sıra elm sahələri üzrə dünyada qabaqcıl mövqeyə malikdir. Bununla əlaqədar yerli və xarici ekspertlər hazırki şəraitdə Azərbaycanı inkişaf etmiş ölkələrlə müqayisə edərək, insan amilinin inkişafı üçün respublikamızda yüksək potensialın olduğunu göstərirlər.

Respublikamızda insan inkişafı ilə əlaqədar irəliləyiş hər il nəşr olunan «Azərbaycan respublikasında insan inkişafı haqqında hesabat»da da göstərilir. Bu hesabatlarda göstərildiyinə görə son illərdə respublikamızda insan inkişafı indekslərinin dinamik artımı

hiss olunmaqdadır. İnsan inkişafı indeksinə görə, dünya ölkələri arasında Azərbaycan 1999-cu ildə 110-cu, 2000-ci ildə 90-cı, 2001-ci ildə isə 79-cu yerdə olmuşdur. Davamlı inkişafa xidmət edən faktorlardan biri də mənəvi-psixoloji amillərin formalaşmasıdır. Müasir cəmiyyətin inkişafı «həyat səviyyəsi», «insan potensialı», «insan kapitalı», «insan resursları» kimi anlayışların yaranmasına təkan vermişdir. İnsanın həyat fəaliyyəti prosesinin idarə edilməsi problemi insan potensialının qorunması və inkişafı sahəsində qlobal siyasətin qarşısında duran əsas vəzifələrindən biridir. Davamlı insan inkişafının əsas sosioloji göstəricilərindən biri cəmiyyətdə insan hüquqlarının praktiki cəhətdən bərqərar olmasıdır. İnsan hüquqlar şəxsiyyətin həyat fəaliyyətinin bütün sahələrində onun hüquqlarının təzahürüdür. Tarixi faktlar sübut edir ki, öz hüquqlarını dərk edən vaxtdan insanlar həmişə zülmə və sosial ədalətsizliyə qarşı etirazlarını bildirmişlər. Sosialoji baxımdan insan hüquqları - insanın mülkiyyətidir, onun mühüm nailiyyətidir, adamların təbiətə, cəmiyyətə, dövlətə və bir-birinə münasibətini ifadə edən həyati tələbatdır.

İnsan hüqüları və azadlıqları haqqında Beynəlxalq sənədləri rəhbər tutan Azərbaycan Respublikasında son illərdə hüquq və ədalətə söykənən, vətəndaş cəmiyyətinin qurulmasına zəmanət verən qanunvericilik bazasının əsası qoyulmuş və onun təkmilləşdirilməsi hazırda davam edir.

Ətraf mühitin mühafızəsi və ekoloji problemlərin həll edilməsi davamlı insan inkişafı üçün vacib amillərdən biridir. Azərbaycanda davamlı insan inkişafını təmin etmək məqsədilə ətraf miühitin mühafizəsi və təbii resuslardan səmərəli istifadə edilməsinin hüquqi bazası yaradılmışdır.

Qlobalaşma prosesində insan inkişafını təmin etmək üçün, hər şeydən əvvəl, onun sosial tələblərini ödəmək və insanların sosial problemlərini həll etmək vacibdir. Sosial siyasətin əsas məqsədi cəmiyyətin sosial mühitinin, ayrı-ayrı fərdlərini və sosial qrupların tələblərinin təmin edilməsi, daha dəqiq desək insanların maddi və mənəvi tələblərinin ödənilməsini ifadə edən sosial tərəqqiyə nail olunmasıdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra (1991-ci ildən) ölkəmizdə sosial problemlərin kəskinləşməsi daha da artmışdır. Ölkədə bazar iqtisadiyyatına keçid, mülkiyyətin özəlləşdirilməsi, iqtisadi islahatların aparılması, köhnə sosial-iqtisadi mexanizmlərin aradan qaldırılması sosial problemlərin kəskin şəkildə artmasına zəmin yaratmışdır. Həmçinin torpaqlarımızın 20 %-nin ermənilər tərəfindən işğalı və 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi ölkənin sosial problemlərini daha da gərginləşdirmişdir.

Davamlı insan inkişafı probleminin getdikcə aktuallaşdığını nəzərə alan respublika rəhbərliyi son illərdə qəbul edilmiş beynəlxalq sənədlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi məqsədilə ciddi tədbirlər görmüşdür. Bu tədbirlərdən biri Azərbaycan Respublikası prezidentinin 2 mart 2001-ci il 636 saylı sərəncamına əsasən "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın hazırlanmasıdır. Ümummilli li-

der Heydər Əliyevin təşəbbüsü ilə 25 oktyabr 2002-ci il tarixdə bu proqramın təqdimatına həsr olunmuş ümummilli konfrans keçirilmişdi.

Nəhayət, Azərbaycan Respublikası prezidentinin təşəbbüsü ilə Respublika Nazirlər Kabineti "Azərbaycan Davamlı insan inkişafı strategiyası"nın hazırlanması haqqında 30 oktyabr 2001-ci il tarixli 198 saylı sərəncam imzalamışdır. Yuxarıda göstərilən driektiv sənədlər davamlı insan inkişafının strateji istiqamətlərin hazırlanmasında mühüm hüquqi və metodoloji baza rolunu oynayır.

Ulu öndər Heydər Əliyevin layiqli varisi prezident İlham Əliyev hazırki qloballaşma şəraitində davamlı insan inkişafı konsepsiyasını daim təkmilləşdirir, respublikamızda şəxsiyyətin hərtərəfli inkişafı üçün münbit şərait yaradılır.

### Ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat.Bakı.2002-ci il.
2. Yoxsulluğun azaldılması üzrə Dövlət Proqramı. Bakı.2001
3. Azərbaycan Respublikasında insan hüquqları. Bakı. 1998-ci il.
4. Azərbaycan Respublikasının ətraf mühitə dair qanunvericilik toplusu, I hissə. Bakı.2002-ci il.
5. S.Hüseynov. "Davamlı insan inkişafının strateji istiqamətləri".Bakı.2003-cü il.